# Vaqif Bəhmənli:
# Məni məndən yaxşı tanımaz kimsə...



*Oqtay Abbas,*
*Şabran-Çaraq*

**Vaqif Bəhmənli Azərbaycan poeziyasında sözünü demiş, imzasını təsdiqləmiş şairdir. Bəlkə də müəyyən qədər səhv etdim: Vaqif təkcə şair deyil, öz dəst-xətti olan jurnalist, nasir, publisist, əsası isə, qədimlərdə insanı müsbət cəhətdən səciyyələndirmək üçün istifadə olunan ifadədə deyildiyi kimi, oturuşunu-duruşunu bilən, sözünün sahibi olan nəcib şəxsiyyətdir. "oturuşunu-duruşunu bilmək" və "şəxsiyyət" -tutarlı ifadələrdir. Az qala şimşək kimi cingildəyir qulaqlarda. Burada insan xarekteri ilə bağlı zəngin məzmun var; belə "tərifə" adətən, davranışı ilə başqalarına narahatlıq yaratmayan, sözünü bişirib ağzından çıxaran, varlığı ilə bunu başqalarına da təlqin edən adamlar layiq görülürlər. Bu cür adamların üzündən təbəssüm əksilmir, səbrli olur, çevrəsindəkilərdə də xoş əhval-ruh yaradırlar. Belə adamlar bağlandıqları kim, nə varsa onlara sadiqliy, sədaqəti ilə seçilirlər. Başqalarından da bunu gözləyirlər. Bir sözlə, belə yaxşı ifadə yaxşı insanlardan söz düşəndə dilə gəlir...**

Əgər bu keyfiyyətlərin sahibi yaradıcı adamdırsa, onda sifətin çoxaltma dərəcəsinə müraciətə ciddi ehtiyac yaranır: "Yaxşıdır"dan əvvəl ürəklə bir "lap" da artırırsan. Məsələ gəlib çıxır o məqama ki, yaxşı insan Vaqif Bəhmənli kimi şair olur, sözü geniş mənada oxucunu riqqətə gətirir. Onda tutalım, sifətin daha bir yüksək dərəcəsinə zərurət yaranır. Sifətin bu dərəcəsi dilçilərin işidir.

Şairliyi ilə vəhdətdə nəzərdən keçirəndə nəticəyə gəlirsən ki, Vaqifin şeirlərinin gözəlliyi onun xarakteri, xasiyyəti ilə bağlıdı:

**Varmı yer üzündə, göyün altında**
**Mənimtək dayanan sözünün üstə?**
**Sənə yer salaram geniş alnımda,**
**Səni saxlayaram gözümün üstdə.**

**(Könlümdən keçəni bilsəm)**

V.Bəhmənli işgüzar adamdır. Özünün dediyi kimi, başqa işlər onu özünə tabe etməmişdən yuxudan durur, əl-üzünü yuyur. Bu olur təxminən səhər beş və ya altının yarısı. Təzə, pürrəngi çay öz yerində, içib keçir yazı masasının arxasına. Əsas odur ki, çoxları yuxudan duranda Vaqifin qarşısında heç olmasa 4-5 səhifə qaraya tutulmuş vərəq olur.

"Ağ kağıza yaz qara" vəzifəsini uğurla yerinə yetirmiş Vaqif həvəslə işə başlayır. Çünki arxada yarımçıq işləri qalmayıb. Mənim sözlərim deyil: Şairlər bir qədər başqa cür yaranırlar, Allaha digərlərindən bir köynək yaxın olurlar. Bəlkə elə bu səbəbdən şairlərdə planlaşdırma və plan üzrə hərəkət etmək çətin alınır. Hisslər coşur. Hansısa nazəninin ətri səni vurur və ürəyində gizli, lakin möhkəm yazmaq istəyi baş qaldırır. Vaqif görəsən belədə nə edir? Buna cavab verə bilmərəm. Yəqin, özünəməxsus bir çıxış yolu tapır. Amma Vaqifin bir müsahibəsində dilə gətirdiyi fikirlər bu məqamda yerinə düşür: "Qədrimi bilirəm, ömrümə məsuliyyətlə yanaşıram. Adam var bunu burdan götürüb ora qoyur, yorulur. Mənim naturam yorulmayan naturadır, ruhum qaynardır. Əlbəttə, yaxşı olardı ki, yalnız yaradıcılıqla məşğul olum. Bu mümkün deyil. Çünki Azərbaycandakı ədəbi mühit anlayışı ilə dünyadakı mövcud olan ədəbi fəaliyyət anlayışı fərqlidir. Məncə, orada müəllif işi peşəkar işdir, bizdə lobbi. Əlbəttə, təbii vergi əsasdır, amma o, böyük zəhmət, çoxlu və seçmə mütaliə nəticəsində formalaşan ədəbi təfəkkürlə, zəka və intellektlə birləşməyəndə şair, yazıçı dediyin birisi bütün ömrü boyu özünü aldadır, sonda ortaya bir çürük qoz da çıxmır..."

Deməli, bəzilərinin qürurla dedikləri "Mən hər şeyi şeirə qurban verərəm" ifadəsi Vaqif üçün çox da düz gəlmir. Sadəcə, o işini elə tutur ki, ürəyindən keçirsə, "bir halə sarı simi dilləndirirsə" bunu dövlətin məvacib verdiyi vaxtın hesabına etmir. Yadıma klassik kişilərin ümumi mənafe ilə fərdi marağı necə həssaslıqla əlaqələndirdiklərindən bəhs edən hekayət düşür, hekayət bir qədər qədim zamanlara-elektrik enerjisinin kəşf edilmədiyi dövrlərə aiddir: Biri şəhərə iş dalınca yollanır. İşini başa çatdırdığına görə, bir qədər gəzmək fikrinə düşür. Gəzdiyi yerdə bir binanın qarşısında, qapının üstündə vurulmuş lövhədə dostunun adını oxuyur. Bilir ki, dostu bu binada çalışır.

Qaranlığın düşməsinə baxmayaraq fürsətdən istifadə edib onunla da görüşmək qərarına gəlir. Dostu onu mehribanlıqla qarşılayır. Hal-əhval tutur. Qonağının başqa bir işi olmadığını, sadəcə görüşmək üçün gəldiyini biləndə qarşısındakı iki çıraqdan birini-yananı söndürüb, digərini yandırır. Söhbət başa çatır. Dostu marağını gizlədə bilməyib, nə üçün eyni iki çıraqdan birini (yananı) söndürüb, digərini yandırdığını soruşur. Cavab elə indi də ibrətamizdir: Sən gələndə söndürdüyüm çıraqdan dövlət işlərini yerinə yetirərkən, ikincidən isə şəxsi işlərimdə istifadə edirəm. Ona görə də sən mənimlə görüşməyə gəldiyindən bu qərarı qəbul elədim bir.

Bilirəm, standartlarla uyuşmayan fikirlər kimi qiymətləndirmək istəyənlər tapılacaq. Nə etməli? Olsun. Amma bütün dövrlər üçün səciyyəvi sayılan, müsbət qiymətləndirilən keyfiyyətlər də var axı!

Bəlkə elə bu dəyişməz xüsusiyyətlərə sədaqətindəndir ki, Vaqif harada işləyibsə, orada onu yaxşı işçi, yaxşı insan kimi tanıyıblar. Tabe olduğu adamlar da, ona tabe olanlar da belə düşünüblər. Mən isə bu qənaətə Vaqif Bəhmənlini tanıdığım uzun illərin yüngülvari təhlili ilə gəlirəm; müxbir olub, əlindən çiy yazı çıxmayıb, şöbə müdiri işləyib, şöbənin fəaliyyəti həmişə nümunə göstərilib, qəzetdə, jurnalda redaktor kimi çalışıb, yenə cani-dildən çalışıb, iş yerinin üzüağlığını başqalarından tələb etməzdən əvvəl özü nümunə göstərib.

Amma hara gedirsən, get, nədən danışırsan, danış, axırı gəlib çıxır Vaqifin çox halda özünə oxşayan şeirlərinə. Ürəyində "Şeir müəllifinə oxşayır" deyimini bir daha təsdiqləyirsən. Vaqif hətta yüzlərlə şeir həsr olunmuş mövzuya müraciət edəndə də sanki



insanlıq üçün tamamilə yeni olan məsələdən yazır:

**Bir qaşıq torpaq tökün qulağıma:**
**anamın səsi gəlsin;**
**Layla istəyirəm.**
**Bir qaşıq torpaq tökün**
**stəkanıma-**
**şirin çay istəyirəm.**
**Bir qaşıq torpaq tökün gözlərimə-**
**Yatmaq istəyirəm!**

**(Bir qaşıq torpaq)**

Vaqif atasını erkən itirib. Bu nisgil həmişə uşaq könlünü qanadıb. Anasını itirmək xofu isəə həmişə onu kölgə kimi izləyib. Anasının səsi-həniri daima qulaqlarında olub. Ta onu da itirənə qədər. Amma anasının səsini nə vaxtsa eşidəcəyi ümidini itirməyib. Düşünüb ki, uyuduğu torpaq qulağına anasının səsini, laylasını çatdırar bir gün...

Mən özüm ali məktəbdə çalışıram. Tələbələrim arasında qızlar üstünlük təşkil edirlər. Həmişə istəmişəm ki, onlar gündəlik tədris tapşırıqlarını elə dərsdə öyrənsinlər. Bəzən bu işi evə saxlamağa üstünlük verənlər də olur aralarında. Demişəm: Tapşırığı dərsdə yerinə yetirin, evdə bu işə sərf edəcəyiniz vaxtı valideynlərinizə ayırın, onlarla söhbət edin, başınızı ananızın dizləri üstünə qoyun, əllərini sığallayın, saçlarını öpün, ətrini sinənizə çəkin, atanız işə gedəndə yağınız daşsa da, qoyun, onun arxasınca su atın, sağ-salamat qayıtması üçün dua edin-çünki buna çox az vaxtınız qalıb. Hə, bir də tövsiyə edirəm ki, gənclər V.Bəhmənlinin anasına, əslində bu şeirlər bütün analara aiddir, ithaf etdiyi şeirləri oxusunlar, əzbərləməsələr da olar, sadəcə oxusunlar:

**Ana haqqında**
**ana südü kimi**
**pak və halal**
**bir şeirim olaydı**
**keşkə-mənim kimi**
**xas yetimin anası haqqında,**
**millətimin anası haqqında,**
**planetimin anası haqqında...**

**(Keşkə)**

Vaqifin bir şeiri var. "Utancaq şeir"dir adı. "Üzü qara edən şeir" də adlandırmaq olardı bu şeiri. Amma məsələ adda deyil, şairin ürəyinin döyüntüsündədir:

**Mənim bir şeirim var-**
**Utanıram onu yazmağa.**
**Çünki boşdur çənədən...**
**Yaxşı ki utancağın**
**oğlu olmur binədən...**

**( Utancaq şeir )**

Dəlilik dərdi insan var olandan onu düşündürür. Koroğlu dəliləri, sevdiyini başqa heç nə ilə inandıra bilməyəndə "səni dəli kimi sevirəm" dedirdən dəlilik. Filosoflar lap kökündən çalıblar baltanı: İnsanlar səni başa düşməyəndə bil ki, artıq dəlisən. Etdikləri ağır cinayətlərin cəzasından qaçmaq üçün özünü dəliliyə vuranlar da var, haqsızlığa etirazlarına görə dəlixanaya salınanlar da. Amma V. Bəhmənli dəliliyi ruhun azadlığı kimi dəyərləndirir. Xüsusi bir ifadə tərzi ilə dəli anlamına yeni don biçir. Görürsən ki, bu don dəliyə daha yaxşı yaraşır:

**Hərdən dəli olub**
**öz -özümə danışır,**
**dağı aran çəkirəm,**
**aranı dağa...**
**Və deyirəm:**
**eşq olsun azadlığa!**

**(Dəli)**

Qeyd etdik, Vaqifdə bütün mövzular təzə-tər görünür. Sanki daha əvvəllər heç kəs həmin mövzuya müraciət etməyib. Ölüm də belələrindəndir. Filosof Sokrat onun az sonra öləcəyinə kədərlənən dostlarına deyir ki, gedən mənim cismimdir, ruhum isə sizinlə qalır. Filosof dostlarına belə təsəlli verir. V.Bəhmənli "Gözlərin baxa-baxa ölərəm bir gün, Sənə toy tutaram, fikir eləmə..." yazır. (Fikir eləmə)

Ailə məhəbbəti Vaqifidə əbədi hiss kimi daimi yer tutur. Sonra bu hiss şeirlərində də özünü göstərir. Şeirlərini oxumazdan əvvəl də biz dostları bu məhəbbətdən xəbərdardıq. Nəvələrinə, övladlarına, həyat yoldaşına adi kövrək bir baxışı, kiçik şeiri belə bu məhəbbətdən doğub, cilalanıb, araya-ərsəyə gəlib:

**Könlüm**
**Məcnun olsa əgər**
**uşaqların anasının**
**bir dırnağına görə**
**yüz Leylidən keçər...**

**(Mübaliğəsiz şeir)**

Vaqif o şəxslərdəndir ki, həmişə özünü kimsəə, əslində hamıya, borclu sayır. Əlindən gələn yaxşılığı əsirgəyən deyil. Amma edə bildiklərini az sayır, düşünür ki, daha çox edə bilərdim. Nümunə verdiyim şeirdə V.Bəhmənli yaxın insanlara- valideynlərinə, bacı-qardaşlarına layiq olmamağın yaratdığı ağrını qələmə alır.

**(ardı gələn sayımızda)**